## Elxan Yudoğlu

### Gözüm və Gözlüyüm

Son vaxtlar sağ gözüm incidir məni
Acı su dayanmır, axır, hey axır.
Sol gözüm ikiqat əziyyət çəkir
Sağın da yerinə sağ-sola baxır.

Yaxın adamların uzaqlığını
Yaxşı görmək üçün gözlük almışam.
Uzaq adamların yaxınlığına
Təəccüb edirəm, çaşıb qalmışam.

Gözüm torlandıqca sevinirəm ki
Əyri adamları düz görməyəcəm.
Daha topuğuma daş atanları
Daha maskalanmış üz görməyəcəm.

Gözümün əlindən tutan gözlüyüm
Kiçik adamları böyük göstərmə.
Gözümə yük etmə hər görünəni
Yaltaqlıqçün əl ayaqdan gedəni.

Çox bilən, iş bilən, ütük göstərmə
Gözlük gözlərimin əl ağacıdır.
Gözlüyüm qoymur ki, yıxıla gözüm
Gözlük də dadına çata bilməsə
Yumul, əbədilik yuxula, gözüm!